2019-cu ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 73180 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 27,5 faiz azdır. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilə nisbətən 25,2 faiz azalaraq 69850 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 95,4 faizini təşkil edir.

2019-cu ilin yanvar ayında muxtar respublikada tikinti sahəsində 8747 nəfər işçi çalışmışdır ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 0,9 faiz artaraq 441,8 manat olmuşdur.